## Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi

# İrəvandakı milli mətbuatımızın "Zəngi"si



Cəlal Allahverdiyev, Filologiya üzrə fəlsəfə doktoru, dosent

**1921-ci ilin iyun ayında İrəvanda Azərbaycan dilində "Rəncbər" qəzeti nəşr edildi. Amma erməni şovinist dairələrinin məkrli siyasəti nəticəsində 1922-ci ilin dekabr ayının sonlarında "Rəncbər" qəzetinin də nəşri dayandırıldı. Bununla da azərbaycanlı oxucular yenidən anadilli mətbuat orqanından məhrum edildi. İrəvanda və bölgələrdə yaşayan azərbaycanlı əhalinin isə qəzet nəşrinə olan tələbatı gündən-günə artırdı. İrəvan ziyalıları mədəni həyatda köklü dirçəlişin həyata keçirilməsi üçün anadilli mətbuatın yaranmasının zərurət olduğunu isə aydın şəkildə dərk edirdilər.**

Bir qrup İrəvan ziyalıları, xüsusən EK(b) P MK-nın yanında fəaliyyət göstərən "Azsaylı xalqlar" şöbəsinin müdiri Bala Əfəndiyev erməni şovinist dairələri qarşısında Azərbaycan dilində mətbu orqanın yaradılması haqqında dəfələrlə rəsmi şəkildə müraciət etsələr də, qəzet nəşrinə icazə verməmişdilər. Amma milli düşüncəli, qeyrətli azərbaycanlı ziyalılar Bala Əfəndiyevin, Mustafa Hüseynovun, Əkbər Rizayevin, Murtuza Muradovun, Mehdi Kazımovun təşəbbüsü, milli və siyasi iradəsi, qətiyyəti, uzunmüddətli gərgin mübarizəsi sayəsində Ermənistan Kommunist Partiyası Mərkəzi Komitəsi tərəfindən 1924-cü ilin noyabr ayının əvvəlində qəzetin "Zəngi" adı ilə nəşr olunmasına icazə verilir. "Zəngi" qəzeti bu haqda yazır: "Ermənistanda şura hökuməti qurulduğu zamanlarda İrəvanda "Kommunist", bilaxirə "Rəncbər" adında qəzetlər çıxmaqda idi. Fəqət qəzetlərin davam etdirilməsi üçün ən ziyadə maddi cəhətin olmaması ikinci məsələyə də mane olurdu. Cümhuriyyətimizin təsərrüfatı artmış və bu yolda qazandığımız müvəffəqiyyət Ermənistanda yenidən bir türk qəzetinin çıxmasını meydana atmışdı. Buna görə də Ermənistan K(b) P MK əfkarı naşiri olmaq üzrə "Zəngi" adında qəzeti nəşrə başlayır. Qəzetin fikri və məqsədi yalnız şura türk kəndlərini xəbərdar etmək və qəzalarda olan türklərin yaşamasına yardım etməkdir".

Araşdırmalar nəticəsində məlum olur ki, bu qəzetin də nəşr edilməsinə 1922-ci illərdə Ermənistanın Xalq Maarif Komissarı, 1924-cü ildən isə EK(b) MK-nın katibi olmuş, Aşot Ohanesyan mane olurmuş. Amma "Zəngi" qəzeti bu haqda yaza bilmirdi. "Zəngi"nin xələfi olan "Qızıl şəfəq" qəzeti 1937-ci ildə bu barədə yazır: "Ölkənin siyasi-iqtisadi inkişafı, kütlələrin və o cümlədən azərbaycanlı kütlələrin siyasi aktivliyinin yüksəldilməsi türk (Azərbaycan) dilində qəzet nəşr etmək məsələsini yenidən irəli sürmüşdür. ÜİK(b) P Zaqafqaziya Ölkə Komitəsi millətçi Konturrevolyusioner Aşot Ohanesyanın millətçi fikrini rədd edərək, 1924-cü ildə "Zəngi" qəzeti nəşr etməyi qərara aldı". Sonralar qəzetin redaktoru olmuş Mustafa Hüseynovun İrəvanda anadilli bolşevik mətbuatının yaranması haqqında yazılarından da məlum olur ki, xaricdəki erməni lobbisi də Azərbaycan dilində qəzetin nəşr edilməsinə müxtəlif vasitələrlə maneçilik törədirmiş. Xaricdəki erməni daşnaklarının proqramı əsasında fəaliyyətlərini müəyyənləşdirən Ermənistanın bolşevik cildinə bürünmüş rəhbərləri qeyrətli Azərbaycan ziyalılarının təkidli tələbindən sonra məcburiyyət qarşısında qalaraq "Zəngi" adlı qəzetin nəşr edilməsinə icazə vermişdi. Onu da qeyd edək ki, qəzetin erməni şovinist dairələrinin istədiyi adla deyil, Bala Əfəndiyevin təşəbbüsü ilə "Zəngi" adı ilə nəşr edilməsi məqsədəuyğun hesab edilir.

"Zəngi" qəzetinin nəşrinə icazə verilməsinə baxmayaraq onun işıq üzü görməsi heç də asan olmur. Qəzetin nəşrini təmin etmək üçün mətbəə, şrift, bir sıra texniki avadanlıqların əldə olunması, işçi qüvvəsinin toplanması, məqalə yazmaq və s. bu kimi meydana gələn problemlərin həll edilməsi günün ən vacib məsələlərindən idi. Mətbəədə türkcə şriftin az olması, onun da yalnız 2-3 səhifəyə kifayət edəcəyi "Azsaylı xalqlar" şöbəsinin müdiri B.Əfəndiyevi və qəzetin digər işçilərini çətinlik qarşısında qoymuşdu. Qəzetin nəşri məsələsi, ilk nömrəsinin çıxması isə 1924-cü il noyabrın 29-a nəzərdə tutulmuşdu. Mətbəədə texniki və mütəxəssis çatışmazlığına baxmayaraq qəzet nəzərdə tutulduğu vaxtda çıxa bilmişdi. Bala Əfəndiyevin redaktorluğu ilə 29 noyabr 1924-cü ildə 2 səhifədən ibarət olan "Zəngi" qəzetinin ilk sayı işıq üzü görür. Amma qəzetdə "Zəhmətkeş" adı ilə nəşr edilmiş "İki bayram" adlı məqalədə "Zəngi"nin, nədənsə, 1925-ci il noyabr ayının 29-da işıq üzü gördüyü qeyd edilib. Apardığımız araşdırmalardan və "Zəngi" qəzetinin əldə etdiyimiz ilk nömrəsindən aydın olur ki, qəzet 1925-ci ildə deyil, 29 noyabr 1924-cü il tarixində işıq üzü görüb. Qəzetin ilk və sonrakı bir neçə nömrəsi Bala Əfəndiyevin, Mustafa Hüseynovun, Murtuza Muradovun böyük əzmkarlığı və səyi ilə araya-ərsəyə gəlir. Onlar bütün qüvvə və bacarıqlarını qəzetin vaxtlı-vaxtında, yüksək keyfiyyətlə çıxmasına sərf edirdilər. Yeri gəlmişkən, onu da qeyd edək ki, M.Muradov qəzetin ilk müxbiri, fotoqrafı (rəssamı) olmaqla yanaşı həm də bu mətbu orqanın texniki şöbəsinin müdiri vəzifəsində çalışırdı. Sonralar isə qəzetin kütləvi şöbəsinin müdiri vəzifəsinə təyin edilmişdi. Ümumiyyətlə, M.Muradovun da İrəvanda Azərbaycan ədəbi-mədəni mühitinin tərəqqisindəki fəaliyyəti təqdirəlayiqdir. Qəzetin səhifələrində onun xeyli sayda felyetonları, məqalələri dərc olunub.

Ermənistanda sovet hakimiyyətinin qurulmasının 4-cü ildönümü günü nəşrə başlayan "Zəngi" qəzetinin ilk bir neçə nömrəsi ərəb əlifbası ilə nəşr edilib. Sonralar isə "Zəngi" qəzeti Bakıda nəşr olunan qəzetlər kimi yarı ərəb əlifbası, yarı latın qrafikası ilə nəşr edilmişdi. "Redaktor" qrafası yerində "heyəti-təhririyyə" yazılırdı.

Bu mətbu orqanın ilk nömrəsinin işıq üzü görməsi münasibəti ilə Azərbaycan Xalq Komissarları Sovetinin sədri Qəzənfər Musabəyov, Naxçıvan Mərkəzi İcraiyyə Komitəsinin sədri Qafar Babayev, Zaqafqaziya Kommunist Universitetində təhsil alan irəvanlı Rza Vəlibəyov və başqaları "Zəngi" qəzetinə təbrik məktubları göndərmişdi. Qafar Babayevin təbrikində deyilirdi: "Naxçıvan Mərkəzi İcraiyyə Komitəsi minlərcə şərqin qapısında yaşayan zəhmətkeş kütlələrin adından "Zəngi" qəzetinin 1-ci nömrəsinin işıq üzü görməsi münasibəti ilə səmimi qəlbdən təbrik edir, türk zəhmətkeşləri arasında maarif və mədəniyyətin təbliğində böyük rol oynayacağına əminik".

İlk növbədə qəzetçilik ənənəsini formalaşdırmaq, yüksək keyfiyyətli qəzet nəşr etmək, oxucu kütləsinin rəğbətini qazanmaq redaksiya heyətinin qarşısında duran günün ən vacib məsələsi idi. Qəzetin qarşısında duran ən başlıca məqsədlərindən biri də onun yayılma arealını genişləndirmək, oxucu kütləsi ilə təmasını gücləndirmək idi. Qəzetdə "Qəza xəbərləri", "Müxtəsər məlumatlar" rubrikaları da fəaliyyət göstərirdi.

Qəzet nəşr olunduğu ilk günlərdən azərbaycanlı oxucularda böyük maraq doğurduğundan, bu mətbu orqanın ətrafına çoxlu sayda müxbirlər, yaradıcı ziyalılar toplaşmağa başlayır. Qısa zaman ərzində Əkbər Rizayev, Əli Heydərov, Əli Şabanov, Hüseyn Münşiyev, Qulam Fərhadov, Əsgər Əsgərzadə, Məhəmməd Əzimzadə, Məcid Sultanov, Əli Rəhimov, Qəşəm Şahbazov, Həbib Məhəmmədzadə, Əhməd Əhmədov, Qasım Əliyev, Lütfullah Muğanlinski, Kərim Əhmədov, Əşrəf Yusifzadə və başqa ziyalılar qəzetin işində fəal iştirak edərək, onun ən aktiv müxbirlərinə çevrilmişdilər.


Zəngi gəzetəsi
BIR MAJ BAJRAMLNA HAZLRLA3 MALI

"Zəngi" qəzetinin müxbirləri sırasında Məmməd İsgəndərov, Fətəli Eyvazov, C.İsgəndərli, Əbdül Əhəd, Allahverdi Vəliyev, Umud Süleymanov, Savalan Şirinov (Zəngəzur), İ.İsmayılov, Həbib Ağayev Razdannahiyyəsi üzrə), Əli Ramazanov (Lori-Pəmbək), Həsən İbrahimov, Teymur Süleymanov (Dilican), Adil Paşayev, Lentroş Süleymanov, Məhəmməd Paşayev (Vedibasar), Əsgər Musayev, Əbülfət Rəhimov, Əbdüləzim Hacılı (Basarkeçər), Qasım Əliyev, Cavad Axundov (Zəngibasar) və başqalarının imzalarına da rast gəlmək olar.

"Zəngi"nin redaktoru B.Əfəndiyev, redaksiya heyətinin üzvləri M.Hüseynov, Ə.Rizayev, M.Muradov və başqaları qəzetin maddi-texniki bazasının gücləndirilməsi, səviyyəsinin yüksəldilməsi üçün böyük əzmkarlıq göstərirdilər.

Qəzetin keyfiyyətli və qüsursuz, sanballı nəşri üçün təcrübəli mütəxəssis kadrlara isə böyük ehtiyac olduğundan B.Əfəndiyevin, M. Hüseynovun şəxsi təşəbbüsü və yardımı sayəsində redaksiyanın əməkdaşları peşə ixtisasını artırmaq məqsədi ilə Moskva, Leninqrad, Xarkov, Rostov və başqa şəhərlərdə nəşr olunan "Pravda", "İzvestiya" kimi qəzetlərin redaksiyalarında iş təcrübəsi keçməyə göndərilirdilər.

"Zəngi" qəzetinin nömrələrini ardıcıl izlədikdə burada "Molla Nəsrəddin" satirik jurnalının təsiri daha çox nəzərə çarpır. "Molla Nəsrəddin" jurnalındakı "Lağlağı", "Mığmığa", "Bacadan baxan", "Cırcırama", "İki müxbir" "Hərdəmxəyal", "Ruçka" və s. bu kimi imzalara "Zəngi" qəzetinin səhifələrində tez-tez rast gəlinməsi, felyetonların, karikaturaların oxşarlığı, satirik məzmunlu yazıların üslubu özünü daha çox göstərir. Görünür, vaxtı ilə "Molla Nəsrəddin" satirik jurnalı İrəvanda özünə daha möhkəm yer tutmuşdu. Yeri gəlmişkən onu da qeyd edək ki, vaxtı ilə İrəvanda çalışmış və "Kaspi" qəzetinin İrəvan üzrə müxbiri olmuş görkəmli yazıçı, publisist Eynəli bəy Sultanov bir müddət "Zəngi" qəzetində tərcüməçi kimi çalışıb.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Qəzetin sütunlarında həkim məsləhətləri, kənd təsərrüfatının yeni üsullarla qurulması, aqronom məsləhətləri və s. kimi məsləhət və göstərişlər verən məqalələr demək olar ki, müntəzəm dərc olunurdu. Qəzet Ermənistanda yaşayan azərbaycanlı əhalinin qarşılaşdıqları problemlərin həll edilməsində hüquqlarının qorunmasında da çox böyük rol oynayırdı. "Zəngi" qəzeti azərbaycanlı əhali arasında savadsızlığın aradan qaldırılmasına, maarif və təhsilin inkişafına, yeni türk əlifbasının təbliğinə və tətbiqinə xüsusi diqqət yetirirdi.

İrəvanda və bütün Ermənistanda azərbaycanlı məktəblərinin üzləşdiyi problemlər barədə, məktəblərin dərs kitabları, tədris proqramları, müəllim kadrlarına olan ehtiyacın aradan qaldırılmasına dair "Zəngi" qəzeti səhifələrində müntəzəm olaraq kəskin yazılar çap olunurdu. Hətta qəzet müvafiq qurumlar qarşısında həmin problemlərin həll edilməsini keskinliklə tələb edirdi. "Zəngi" qəzetində "Nöqsanların nə zaman qabağı alınacaq" adlı məqalədə Qəmərlinin Çatma, Kəhrizlər kəndində, Razdan nahiyyəsinin Həmzəli, Cəbəçəli, Xarratlı, Şöllü, Dəmirçi kəndlərində, Zəngibasar nahiyyəsinin Qarğabazar, Zəngəzur qəzasında və qəzanın Qafan nahiyyəsinin bir sıra kəndlərində hələ də milli məktəblərin açılmadığı, bir sıra kəndlərdə isə təməli qoyulan məktəblərin tikintisinin dayandırılması, 1-ci dərəcəli məktəblərdə dərs kitablarının və proqramların yoxluğu, müəllimlərə lazımi şəraitin yaradılmaması və onlara verilən aylıq normaların aylarla gecikdirilməsi kimi məsələlər qəzet səhifələrində xüsusi yer tuturdu.

(Davamı növbəti sayımızda)

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub